# Müstəmləkəçi Fransa Afrikadan əl çəkə bilmir

**Tarixən Afrikada Qərb ölkələri əsl yırtıcılar kimi davranmışlar. Onların arasında, məlum olduğu kimi, Fransa aparıcı yerlərdə qərarlaşıb. 1960-cı illərdə Qara qitənin rəsmi müstəmləkəsizləşdirilməsinə baxmayaraq, Paris o zaman artıq keçmiş koloniyaları üzərində qeyri-rəsmi kuratorluq sistemi qurub. "Françafrique" adlanan strategiya, əslində, bir sıra Afrika ölkələrini keçmiş "ağ ağalardan" iqtisadi, hərbi-siyasi asılı vəziyyətə salıb.**

Bu təcrübəyə yaxşı bələd olan ekspertlərin fikrincə, Fransanın regionda hökmranlıq mexanizmi ənənəvi olaraq birbaşa hərbi iştirak (qitədə dörd daimi fransız bazası var - Cibuti, Fil Dişi Sahili, Seneqal və Qabonda), Qərbi Afrika CFA frankı zonası vasitəsilə maliyyə dominantlığı (2019-cu ildə ekoya çevrilib), korrupsiyalaşmış Afrika siyasətçilərinin rüşvətxorluğu və keçmiş metropoliyanın universitetlərində yerli frankofoniya isteblişmentinin "təlqin edilməsi"indən ibarətdir.

Parisin məqsədləri "asılı" ölkələrdə siyasi və iqtisadi proseslərə tam nəzarəti əldə etməkdən ibarət idi. Və faktiki olaraq müstəqil Afrika ölkələrinə sırınan müqavilələr, onların daxili işlərinə birbaşa müdaxilə, hərbi çevrilişlər və hakimiyyətin zorakılıqla fransız tərəfdarı rejimlərə dəyişdirilməsi onların neokolonial siyasətinin alətlərinə çevrilib.



Getdikcə daha çox afrikalıların gözündə nüfuzdan düşmüş Fransa kursu bu gün iflasa uğramaqdadır. Belə ki, Parisin Saheldə terrorun yayılmasına qarşı mübarizə üçün bəyan etdiyi səylərin səmərəsizliyi ilə üzləşən (bu ilin iyun ayında regionda kəskin eskalasiya fonunda Fransa prezidenti Emmanuel Makron 2014-cü ildən bəri davam edən "Barxan" əməliyyatının başa çatdığını və fransız hərbi varlığının kəskin azalmasını elan etmişdi) Mərkəzi Afrika Respublikası və Mali səlahiyyətliləri öz təhlükəsizliklərini təmin etmək üçün artıq alternativ variantlara müraciət ediblər. Belə sorğuların Rusiyanın özəl hərbi şirkəti (ÇVK) tərəfindən alınması faktını daha əvvəl Rusiyanın xarici işlər naziri Sergey Lavrov da təsdiqləyib.

Ancaq keçmiş Afrika koloniyalarının belə müstəqil hərəkətləri Yelisey çöllərində əsəbi reaksiyaya səbəb olub. Bangi və Bamakoya cavab olaraq, fransızlar bütün hərbi və iqtisadi yardımları tamamilə dayandıracaqları ııə bağlı birbaşa şantaj və hədə yolunu tutublar.

Hələ 2015-ci ilin aprelində "The Guardian" Fransa hərbçilərinin CAR-da yetkinlik yaşına çatmayanlara qarşı cinsi zorakılıq hallarında iştirak etdiyi barədə məlumat yayılmışdı. Düzdür, Parisdə bunu xatırlamamağa üstünlük verirlər. Eynilə özlərinin Afrikadakı siyasi problemlərini həll etmək üçün Geos və Defence Conseil International özəl hərbi şirkətlərinin imkanlarından fəal istifadə etmələri faktı kimi...

Qərbdə son vaxtlar irqi gərginliyin artması fonunda fransız siyasətçiləri dəfələrlə öz ölkələrinin müstəmləkə keçmişini yenidən nəzərdən keçirmək və nəhayət, neokolonial qalıqlardan ayrılmaq niyyətlərini bəyan ediblər. Bununla belə, Parisin əməli hərəkətləri bunun əksini göstərir - Fransanın bir sıra Afrika ölkələrində onların suverenliyinə hörmət etmədən və afrikalıların milli maraqlarına məhəl qoymadan, iflasa uğrayan hegemonluğunu saxlamaq istəyindən xəbər verir.

Təəssüf ki, Fransa Qara qitəyə öz müstəmləkəçi yanaşmasından heç cür əl çəkə bilmir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

Azərbaycan.-2023.- 30 dekabr (№ 287).- S.12.